Layihənin istiqaməti: Regionların sosial-iqtisadi inkişafının təşviq edilməsi

# REGİON

№ 137 (1265) 27 iyul - 28 iyul 2016-cı il

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA
KÜTLƏVİ İNFORMASIYA VASITƏLƏRİNİN
İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDU

(əvvəli ötən sayımızda)

# GÖYÇAY – ONU SEVƏNLƏRİN ŞƏHƏRİ!

*İndi Göyçayda bütün məsələlərin ana xətti yalnız yüksəlişdən keçir*

**Nazirlər Kabinetinin 2016-cı ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev geniş nitq söyləyərək ən mühüm vəzifələrin nədən ibarət olduğunu proqram şəkilində diqqətə çatdırmışdı. Həmin iclasla əlaqədar Göyçayda keçirilən yığıncaqda rayon icra hakimiyyətinin başçısı Mehdi Səlimzadənin məruzəsi dinlənilmişdir. Məruzə və çıxışlarda rayonda ilin birinci yarısında görülən işlər və qarşıda duran vəzifələr müzakirə edilmişdir. Göyçay Rayon İcra Hakimiyyətinin başçısı demişdir:**

**"...Görülən işlər ictimaiyyəti daha da ruhlandırır, böyük işlərə sövq edir ki, biz ölkəmizi daha da gücləndirək, daha da zənginləşdirək, insanlar rifah, sülh, təhlükəsizlik içərisində daha da yaxşı yaşasınlar və bundan sonra da dinamik inkişaf təmin edilsin".**

***Azərbaycan Respublikasının Prezidenti***
***İlham Əliyev***

- 2016-cı ilin birinci yarısında rayonumuzun sosial-iqtisadi inkişafında da bir sıra uğurlar əldə edilmiş, iqtisadiyyatın əsas sahələri üzrə məhsul buraxılışı 2015-ci ilin müvafiq dövrünə nisbətən 11,2 faiz və ya 12,3 milyon manat artaraq 122,9 milyon manat təşkil etmişdir. Ötən müddət ərzində sənaye müəssisələri və bu sahədə fəaliyyət göstərən fiziki şəxslər tərəfindən 17,2 milyon manatlıq məhsul istehsal olunmuş və xidmətlər göstərilmişdir. Keçən ilin birinci yarısı ilə müqayisədə sənaye məhsulu 8 milyon manat və ya 87,5 faiz artmışdır ki, bunun da 85,5 faizi qeyri-dövlət bölməsinin payına düşür. Rayonun aqrar sahəsində də müəyyən uğurlar əldə edilmişdir. Yazlıq bitkilərin əkin kampaniyası aqrotexniki müddətlərdə başa çatdırılmışdır. Cari ilin əkinləri 2015-ci ilə nisbətən 246 hektar və ya 1,2 faiz çoxdur. Hesabat dövründə 13880 hektar taxıl sahəsində biçin aparılmış, 37067 ton məhsul toplanmışdır ki, bu da ötən ilə nisbətən 659 ton və ya 1,8 faiz çoxdur. Hər hektardan məhsuldarlıq 0,2 senter artaraq 26,7 sentnerə çatmışdır. Mövsümün əvvəlində sahələrdən 1871 ton kartof, 12359 ton tərəvəz, 2090 ton meyvə toplanmışdır və tədarük davam edir.

Heyvandarlıq sahəsi daha dinamik inkişaf etmişdir. Rayonun fərdi təsərrüfatlarında keçən ilin müvafiq dövrünə nisbətən iri buynuzlu mal-qaranın sayı 0,7 faiz artaraq 48496 baş, xırda buynuzlu heyvanların sayı 2,9 faiz artaraq 68657 baş olmuşdur. Keçən ilin müvafiq dövrünə nisbətən ət istehsalı 0,8 faiz artaraq 4285 tona, süd istehsalı 0,6 faiz, artaraq 12537 tona, yumurta istehsalı 2,1 faiz artaraq 6 milyon 260 min ədədə, yun istehsalı 1,1 faiz artaraq 90 tona çatmışdır.

Ölkə prezidentinin kənd təsərrüfatının konkret olaraq pambıqçılığın və baramaçılığın inkişafı ilə bağlı tapşırıqlarına müvafiq olaraq rayonun kəndlərində istifadəsiz torpaq sahələrində 200 hektar ərazidə çiyid əkilmiş və hazırda aqrotexniki qaydalara uyğun olaraq becərmə işləri aparılır. Gəlirli sahə olan baramaçsılığın bərpası istiqamətində ilk addımlar atılmış, cari ilin may ayında kumdarlara 475 qram barama qurdu paylanılmış və 1139 kq. barama tədarük edilmişdir.

2016-cı ilin birinci yarısında iqtisadi və sosial sahələrin inkişafı üçün bütün maliyyə mənbələrindən əsas kapitala 14,5 milyon manat və ya 2015-ci ilin müvafiq dövrünə nisbətən 182,4 min manat və ya 1,3 faiz çox investiya yönəldilmişdir. Tikinti-quraşdırma işlərində istifadə edilmiş investisiyaların həcmi 1,3 faiz artaraq 13,7 milyon manat olmuşdur. İnvestisiyaların 94,8 faizi istehsal təyinatlı obyektlərin tikintisində istifadə edilmişdir. Tikinti müəssisələri tərəfindən 2016-cı ilin birinci yarısında 2,2 milyon manatlıq tikinti quraşdırma işləri yerinə yetirilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 856 min manat 62,9 faiz çoxdur.

Cari ilin ötən 6 ayı ərzində rayon əhalisinin həyat səviyyəsi yüksəlmiş, ticarət və xidmət şəbəkələrindən rayon sakinlərinə 136,5 milyon manatlıq istehlak malları satılmış, 26,1 milyon manatlıq pulu xidmətlər göstərilmişdir. Ötən ilin müvafiq dövrünə nisbətən pərakəndə əmtəə dövriyyəsi 2,1 faiz, pulu xidmətlərin həcmi 2,4 faiz artmışdır.





### *Xidmət sahələrinin fəaliyyətinə xüsusi diqqət*

Rabitənin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində müəyyən tədbirlər görülmüş, yanvar-iyun aylarında əhaliyə, müəssisə və təşkilatlara 397,2 min manatlıq rabitə xidmətləri göstərilmişdir ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 4 faiz çoxdur.

Hesabat dövründə əhalinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində müəyyən tədbirlər həyata keçirilmişdir. Göyçay şəhərinin su təchizatı və kanalizasiya sisteminin yenidənqurulma layihəsinin ikinci mərhələsində işlər başa çatdırılmış, şəhərdə yaşayan abonentlərə yeni su mənbəyindən içməli su verilişi təmin olunmuşdur. Hazırda rayonun Şəhadət kəndinin ərazisində ayrılmış 4,5 torpaq sahəsində şəhərin çirkab sularını təmizləyən qurğu kompleksində tikinti işləri aparılır.

Kənd yaşayış məntəqələrinin içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində tədbirlər davam etdirilmişdir. Hazırda rayonun yeraltı içməli su mənbəyi olmayan 6 yaşayış məntəqəsində Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən modul tipli su təmizləyici qurğuların quraşdırılması işləri aparılır. Daha 12 kənddə bu tipli qurğuların quraşdırılması üçün torpaq sahələri seçilmiş və lazımi sənədlər nazirliyə təqdim edilmişdir.

Əhalinin elektrik enerjisi və təbii qazla təchizatının yaxşılaşdırılması istiqamətində bir sıra tədbirlər həyata keçirilmişdir.

**(ardı gələn sayımızda)**

***Məzahir ƏHMƏDZADƏ***

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ YANINDA KÜTLƏVİ İNFORMASİYA VASİTƏLƏRİNİN İNKİŞAFINA DÖVLƏT DƏSTƏYİ FONDUNUN MALİYYƏ YARDIMI İLƏ